**“Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.16-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 23 dekabr 2021-ci il
406

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması**

**QAYDASI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinə əsasən hazırlanmışdır və əlilliyi olan şəxslərin, o cümlədən 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqların (bundan sonra – əlilliyi olan şəxslər) dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması qaydasını tənzimləyir.

1.2. Bu Qayda əlilliyi olan Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil edilir.

## 2. Əlilliyi olan şəxslərin dərman preparatları ilə təmin olunması

2.1. Əlilliyi olan şəxslər bu Qaydaya 2 nömrəli əlavədə müəyyən edilmiş “Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı”nda nəzərdə tutulmuş dərman preparatları (bundan sonra – dərman preparatları) ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə müəyyən etdikləri siyahıda nəzərdə tutulan dövlət müalicə-profilaktika müəssisələrində (bundan sonra – tibb müəssisələri) təşkil edilmiş aptek məntəqələri vasitəsilə təmin olunurlar.

2.2. Bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmuş tibb müəssisələrinin siyahısı onların maddi-texniki bazası, kadr potensialı, ixtisaslaşması və göstərdikləri xidmətin əhaliyə əlçatanlığı nəzərə alınmaqla müəyyən edilir və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi internet saytında yerləşdirilir.

2.3. Əlilliyi olan şəxslərə dərman preparatları bu Qaydaya 1 nömrəli əlavə ilə müəyyən edilmiş “Pulsuz dərman resepti blankının forması” (bundan sonra – resept) əsasında verilir.

2.4. Tibb müəssisələrini dərman resepti blankı ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi təmin edir.

2.5. Əlilliyi olan şəxslər və ya onların qanuni nümayəndəsi şəxsiyyəti təsdiq edən sənədlə tibb müəssisəsinə müraciət etdikləri gün reseptlə təmin edilirlər.

2.6. Bir reseptdə yalnız bir dərman preparatı yazılır.

2.7. Ambulator müalicə ilə əlaqədar verilən dərman preparatlarının dəyəri əlilliyi olan şəxslərin yaşadığı ərazi üzrə bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan dövlət tibb müəssisələrinin xərclərində bu məqsədlə nəzərdə tutulmuş vəsait hesabına ödənilir.

## 3. Əlilliyi olan şəxslərin tibbi xidmətlə təmin olunması

3.1. Dövlət tibb müəssisələri və reabilitasiya müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş “İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi”ndə nəzərdə tutulan tibbi xidmətlər əlilliyi olan şəxslərə icbari tibbi sığorta vəsaitləri hesabına göstərilir.

3.2. Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslərə bu Qaydanın 3.1-ci bəndində və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 321 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlərin növləri”ndə nəzərdə tutulmuş tibbi xidmətlərdən əlavə digər tibbi xidmətlər müvafiq olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik), Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin göndərişləri əsasında dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

**4. Əlilliyi olan şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin olunması**

4.1. Əlilliyi olan şəxslər (bu Qaydanın 4.2-ci bəndində nəzərdə tutulan işləməyən əlilliyi olan şəxslər və 4.3-cü bəndində nəzərdə tutulan əlilliyi olan şəxslər istisna olmaqla) Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbisosial ekspert komissiyası tərəfindən tərtib edilmiş Fərdi Reabilitasiya Proqramında nəzərdə tutulduğu halda Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi (bundan sonra – Xidmətlər Agentliyi) və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (bundan sonra – Təminat Agentliyi) tərəfindən ölkə hüdudları daxilində müalicə üçün sanatoriya-kurort putyovkası (yollayışı) ilə pulsuz təmin olunurlar.

4.2. İşləməyən əlilliyi olan şəxslər dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına, dövlət orqanlarında (qurumlarında), mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda (bundan sonra – təşkilat) işləyən əlilliyi olan şəxslər Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun vəsaiti hesabına və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər isə təqsirkar işəgötürənin vəsaiti hesabına işəgötürən tərəfindən sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar.

4.3. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, pensiya almaq hüququ olan hərbi qulluqçuların sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarı ilə təsdiq edilmiş “Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydası” ilə tənzimlənir.

4.4. Sanatoriya-kurort putyovkası (yollayışı) ildə bir dəfədən çox olmamaqla növbəlilik qaydasında verilir.

4.5. Sanatoriya-kurort putyovkasının (yollayışının) verilməsi barədə Fərdi Reabilitasiya Proqramında göstəriş müəyyən edildikdən sonra əlilliyi olan şəxs 1 (bir) iş günü müddətində növbəyə götürülür. Sanatoriya-kurort putyovkası (yollayışı) üçün növbəlilik Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemi (bundan sonra – MEİS) üzərindən avtomatlaşdırılmış qaydada təmin edilir.

4.6. Növbəyə götürülmüş əlilliyi olan şəxsin, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə isə onların qanuni nümayəndələrinin əlaqə vasitələrindən birinə 2 (iki) gün ərzində qısa məlumat göndərilir, eləcə də onun Nazirliyin “e-sosial” internet portalındakı şəxsi kabinetində ətraflı məlumat əks olunur

4.7. Əlilliyi olan şəxslər sanatoriya-kurort müəssisəsinə qəbul olunma tarixindən ən geci 7 (yeddi) gün əvvəl sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin edilirlər.

4.8. I dərəcə əlilliyi olan şəxsin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdud uşağın müşaiyətçiyə ehtiyacı olarsa, Fərdi Reabilitasiya Proqramının tibbi reabilitasiya bölməsində bu barədə qeyd aparılır. I dərəcə əlilliyi olan şəxsləri və ya 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqları müşaiyət edən şəxslər sanatoriya-kurort putyovkası (yollayışı) ilə həmin əlilliyi olan şəxslərin və 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqların sanatoriyakurort putyovkası (yollayışları) ilə təmin olunduqları təşkilat tərəfindən təmin olunurlar.

4.9. Sanatoriya-kurort putyovkası (yollayışı) rəsmiləşdirilmiş əlilliyi olan şəxslərə dair məlumatlar, o cümlədən onların sağlamlıq vəziyyətinə dair məlumatlar daxil olmaqla sanatoriya-kurort müəssisələrinə həmin putyovkanı (yollayışı) verən təşkilat tərəfindən təqdim edilir.

4.10. Sanatoriya-kurort müəssisələri əlilliyi olan şəxsin sanatoriya-kurort müəssisəsinə qəbul olunduğu və həmin müəssisədən buraxıldığı tarix, habelə aparılmış müalicələrin nəticələri barədə məlumatları müalicə başa çatdıqdan sonra 30 (otuz) gün müddətində Xidmətlər Agentliyinə təqdim edir. Xidmətlər Agentliyi daxil olmuş məlumatları 3 (üç) iş günü müddətində MEİS-in “Sanatoriya-kurort” altsisteminə daxil edir və həmin məlumatlar avtomatik olaraq Fərdi Reabilitasiya Proqramının yerinə yetirilməsi barədə hesabatda əks olunur.

4.11. Sanatoriya-kurort putyovkasını (yollayışını) verən Xidmətlər Agentliyində və Təminat Agentliyində “geri qayıtma” talonunun MEİS-in “Sanatoriya-kurort” altsistemi vasitəsilə qeydiyyatı aparılır və onun putyovkanın (yollayışın) istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin edilir.

4.12. Sanatoriya-kurort putyovkalarının (yollayışlarının) uçotunun aparılmasını, onlara dair hesabatların təqdim edilməsini, habelə mühasibat uçotu sənədlərinin saxlanmasını həmin puytovkaları (yollayışı) verən təşkilat təmin edir.

4.13. Bu Qaydanın tətbiqi zamanı yaranan mübahisələr inzibati və ya məhkəmə qaydasında həll edilir.

“Əlilliyi olan şəxslərin dərman preparatları,
tibbi xidmət və ölkə hüdudları daxilində
sanatoriya-kurort müalicəsiilətəmin olunması
Qaydası”na

**1 nömrəli əlavə**

**Pulsuz dərman resepti blankının forması**

PULSUZ DƏRMAN RESEPTİ BLANKI

_____

Tarix: ________ Tibb müəssisəsi: ___________________________

Xəstənin soyadı, adı və atasının adı: ________________________

Rp.:

Baş həkim (müavin): ______________ Həkim: ____________________

(imza və möhür) (imza və möhür)

Dərmanı aldım: ___________________________________________

(xəstənin soyadı)

Telefonu: ___________________ ________________________

(imzası)

- - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - -

(kəsilmə xətti)

: ________
Tarix: __________ Tibb müəssisəsi: _________________________
Xəstənin soyadı, adı və atasının adı: _________________________
Rp.:
Həkim: ____________________
(imza və möhür)

Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"na

**2 nömrəli əlavə**

**Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı**

| Sıra -si | Dərman preparatlarının adı (beynəlxalq patentləşdirilməmiş adı və qrup adı) | Buraxılış forması |
|---|---|---|
| **Ağrıkəsicilər və qeyri-steroid iltihabəleyhinə dərman vasitələri** | | |
| 1. | Diklofenak | tablet, məlhəm |
| 2. | Ketorolak | tablet, inyeksiya üçün məhlul |
| 3. | Etorikoksib | tablet |
| 4. | Meloksikam | tablet |
| 5. | İbuprofen | tablet, suspenziya |
| **Allergiya əleyhinə dərman vasitələri** | | |
| 6. | Xloropiramin | tablet |
| 7. | Setirizin | tablet |
| 8. | Difenhidramin | tablet, inyeksiya üçün məhlul |
| **Ürək damar sistemi üçün dərman vasitələri** | | |
| 9. | Amiodaron | tablet |
| 10. | Amlodipin | tablet |
| 11. | Enalapril | tablet |
| 12. | Kaptopril | tablet |
| 13. | Kandesartan | tablet |
| 14. | Lizinopril+ Hidroxlortiazid | tablet |
| 15. | Perindopril+İndapamid | tablet |
| 16. | Metoprolol | tablet |
| 17. | Bisoprolol | tablet |
| 18. | İnozin | tablet |
| 19. | Trimetazidin | tablet |
| 20. | Diqoksin | tablet |
| 21. | Maqnezium aspartat+kalium aspartat | tablet |
| 22. | Korvalol | damcı |
| 23. | İzosorbid dinitrat | tablet |
| 24. | Atorvastatin | tablet |
| **Beyin və periferik qan dövranını yaxşılaşdıran dərman vasitələri** | | |
| 25. | Nimodipin | tablet |
| 26. | Sinnarizin | tablet |
| 27. | Pirasetam | tablet, inyeksiya üçün məhlul |
| 28. | Serebrolizin | inyeksiya üçün məhlul |
| 29. | Niserqolin | tablet |
| 30. | Alfa lipoy turşusu | tablet, inyeksiya üçün məhlul |
| 31. | Aktovegin | inyeksiya üçün məhlul |
| 32. | Pentoksifillin | tablet |
| **Antiaqreqant, antikoaqulyant dərman vasitələri** | | |
| 33. | Asetilsalisil turşusu | tablet |
| 34. | Klopidoqrel | tablet |
| 35. | Varfarin | tablet |
| **Sidikqovucu dərman vasitələri** | | |
| 36. | Furosemid | tablet |
| 37. | Spironolakton | tablet |
| **Həzm sisteminə təsir edən dərman vasitələri** | | |
| 38. | Pankreatin | tablet, kapsul, draje |
| 39. | Omeprazol | kapsul |
| 40. | Lansoprazol | kapsul |
| 41. | Metoklopramid | tablet |

| | | |
|---|---|---|
| 42. | Aluminium hidroksid+ maqnezium hidroksid | suspenziya, tablet |
| 43. | Drotaverin | tablet |
| 44. | Ursodeoksixol turşusu | tablet, kapsul |
| **Tənəffüs sisteminə təsir edən dərman vasitələri** | | |
| 45. | Asetilsistein | tablet |
| 46. | Salbutamol | inhalyasiya üçün |
| 47. | İpratropium bromid+fenoterol | inhalyasiya üçün |
| 48. | Salmeterol+flutikazon | inhalyasiya üçün |
| **Sinir-əzələ sisteminə təsir edən dərman vasitələri** | | |
| | 49. Piridostiqmin bromid tablet | |
| | 50. İpidakrin tablet | |
| **Vitamin və minerallar** | | |
| | 51. Piridoksin hidroxlorid | inyeksiya üçün məhlul |
| | 52. Tiamin xlorid | inyeksiya üçün məhlul |
| | 53. Sianokobalamin | inyeksiya üçün məhlul |
| | 54. Nikotin turşusu | inyeksiya üçün məhlul |
| | 55. Polivitaminlər | tablet, inyeksiya üçün məhlul |
| | 56. Kalsium duzları | tablet |
| | 57. Xolekalsiferol | damcı, tablet |
| **Antimikrob dərman vasitələri** | | |
| 58. | Amoksisillin +klavulon turşusu | tablet, suspenziya |
| 59. | Sulfosalazin | tablet |
| 60. | Azitromisin | tablet, suspenziya |
| **Oftalmoloji dərman vasitələri** | | |
| 61. | Timolol | damcı |
| 62. | Adenozin+sitoxrom+ nikotinamid | damcı |
| **Hormonal dərman vasitələri** | | |
| 63. | Metilprednizolon | tablet |
| 64. | Desmopressin asetat | sprey, tablet |
| 65. | Somatotropin | inyeksiya üçün məhlul |
| 66. | Nandrolon | inyeksiya üçün məhlul |
| 67. | Prednizolon | tablet |
| 68. | Budezonid | sprey |
| 69. | Betametazon | krem.məlhəm |
| 70. | Deksametazon | inyeksiya üçün məhlul |
| **Epilepsiya əleyhinə dərman vasitələri** | | |
| 71. | Qabapentin | kapsul |
| 72. | Levetirasetam | tablet |
| 73. | Valproy turşusu duzları | tablet, kapsul, şərbət |
| 74. | Karbamazepin | tablet |
| 75. | Benzobarbital | tablet |
| 76. | Topiramat | kapsul |
| 77. | Fenobarbital | tablet |
| 78. | Lamotrigin | tablet |
| **Bazis iltihab əleyhinə (immunosupressiv) dərman vasitələri** | | |
| 79. | Azatioprin | tablet |
| 80. | Everolimus | tablet |
| 81. | Takrolimus | kapsul |
| 82. | Sirolimus | tablet |
| 83. | Siklosporin | kapsul |
| 84. | Mikofenolat mofetil | tablet, kapsul |
| 85. | Metotreksat | tablet |
| **Parkinsonizm əleyhinə dərman vasitələri** | | |
| 86. | Levodopa+Karbidopa | tablet |
| 87. | Levodopa+Karbidopa+Entakapo | tablet |
| 88. | Triheksifenidil | tablet |
| **Mərkəzi təsirli miorelaksantlar** | | |
| 89. | Tolperizon | tablet |
| 90. | Baklofen | tablet |
| **Depressiya əleyhinə dərman vasitələri** | | |
| 91. | Duloksetin | kapsul |
| 92. | Amitriptilin | tablet, inyeksiya üçün məhlul |
| 93. | Essitalopram | tablet |
| 94. | Klomipramin | tablet |
| **Antipsixotik dərman vasitələri** | | |
| 95. | Haloperidol | tablet, inyeksiya üçün məhlul |
| 96. | Klozapin | tablet |

| | | |
|---|---|---|
| 97. | Levomepromazin | tablet |
| 98. | Perfenazin | tablet |
| 99. | Perisiazin | kapsul |
| 100. | Risperidon | tablet, məhlul |
| 101. | Ketiapin | tablet |
| 102. | Flufenazin | inyeksiya üçün məhlul |
| 103. | Sulpirid | tablet, kapsul, inyeksiya üçün məhlul |
| 104. | Trifluoperazin | tablet |
| 105. | Xlorprotiksen | tablet |
| 106. | Aripiprazol | tablet |
| 107. | Xlorpromazin | tablet, draje |
| **Trankvilizəedici dərman vasitələri** | | |
| 108. | Alprazolam tablet | |
| 109. | Diazepam | tablet, inyeksiya üçün məhlul |
| 110. | Fenazepam | tablet |
| 111. | Klonazepam | tablet |
| 112. | Hidroksizin | tablet |
| 113. | Zopiklon | tablet |
| **Opioid analgetiklər** | | |
| 114. | Fentanil | transdermal |
| 115. | Morfin | ampul |
| 116. | Omnopon | ampul |
| 117. | Tramadol | kapsul, ampul |
| 118. | Trimeperidin | ampul |